**«Təsdiq edilmişdir»**
**Bakı Fond Birjası QSC-nin**
**İdarə Heyəti**
**Protokol № 07**
**«29» oktyabr 2014-cü il**

**Sədr ___________ F.Əzizov**

# BAKI FOND BİRJASININ ÜZVLƏRİNİN SƏLAHİYYƏTLİ TREYDERLƏRİN TİCARƏTDƏ İŞTİRAKI ÜZRƏ AKKREDİTASİYASI QAYDALARI

**1. Ümumi müddəalar**

1.1. Bu Qaydalar Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, Azərbaycan Respublikası Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi (bundan sonra, Nəzarət orqanı) tərəfindən 14 fevral 2011-ci il tarixdə təsdiq olunmuş "Azərbaycan Respublikası ərazisində fond birjasının təşkili, fəaliyyəti və fond birjasının daxili qaydalarına dair Standartlar"a, Bakı Fond Birjasının nizamnaməsinə və daxili qaydalarına (Bundan sonra, Qaydalar) uyğun olaraq hazırlanmış və Bakı Fond Birjasının (bundan sonra Birja) üzvlərinin əməkdaşlarının Birja üzvünün adından Birjada əməliyyatlar aparmasına icazə verilməsi üçün akkreditasiyası prosedurlarını müəyyən edir.

1.2. Bu qaydalar üzrə Birjada əməliyyatlar aparılması üçün akkreditasiya, Birja üzrvlərinin əməkdaşlarının attestasiyası vasitəsi ilə həyata keçirilir.

**2. Attestasiyanın məqsədi**

2.1. Attestasiya birja üzvü adından birjada ticarətdə iştirak edəcək şəxslərin bilik və bacarıqlarının müvafiq funksiyalara uyğunluğunu müəyyən etmək məqsədi ilə keçirilir.

2.2. Attestasiya "ümumi nəzəriyyə" və "praktiki" istiqamətində aparılır. Hər bir istiqamət üzrə minimum keçid balı ayrı-ayrılıqda müəyyən edilir.

Ümumi hissə - birja üzvünün Birjada həyata keçirdiyi fəliyyətinə dair qayda və predurlar, o cümlədən Birjada ticarətin təşkili, keçirilməsi, ticarətdə iştirak, qiymətli kağızların ticarətə buraxılması və listinqi, üzvlük, məlumatların açıqlanması, bazarın qorunması, münaqişələrin həll olunması, birjada bağlanılmış əqdlər üzrə hesablaşmaların həyata keçirilməsi üzrə biliklərin yoxlanılması məqsədini daşıyır.

Praktiki hissə - birja üzvünün Birjanın ticarət sistemi ilə iş vərdişlərinin yoxlanılması məqsədini daşıyır.

2.3. Attestasiyada minimal keçid balı və ya daha yüksək bal toplamış şəxslərə akkreditə şəhadətnaməsi verilir.

**3. Əsas anlayışlar**

3.1. Səlahiyyətli treyder - ticarət iştirakçısının işçisi olub, Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən verilmiş müvafiq ixtisas şəhadətnaməsinə malik olan, ticarət iştirakçısının adından fond birjasında sifarişlərin elan edilməsi və əqdlərin həyata keçirilməsi üçün Qaydalara uyğun olaraq səlahiyyət verilmiş Akkreditə şəhadətnaməsinə malik şəxsdir.

**4. Attestasiya komissiyasının təşkili**

4.1. Attestasiyanın keçirilməsinin təşkili və onun nəticələrinin qiymətləndirilməsi Birjanın Attestasiya komissiyası (bundan sonra Attestasiya Komissiyası) tərəfindən həyata keçirilir.

4.2. Attestasiya komissiyası 3 (üç) nəfərdən az olmamaqla, tək sayda üzvlərdən ibarətdir. Attestasiya komissiyasının üzvləri Birjanın İdarə Heyətinin sədri tərəfindən qeyri-müəyyən müddətə Birjanın əməkdaşlarından, qiymətli kağızlar bazarının peşəkar iştirakçılarından və nəzarət orqanının əməkdaşlarından təyin olunan fiziki şəxslərdir. Birjanın İdarə Heyətinin sədri Attestasiya komissiyası sırasından Attestasiya komissiyasının sədrini təyin edir.

4.3. Attestasiya komissiyasının qərarları azı 3 (üç) komissiya üzvünün iştirakı olduqda etibarlı hesab edilir.

4.4. Attestasiya komissiyası üzvü olan şəxs Birja üzvü ya onun aləqəli şəxs, imtahanda iştirak edəcək namizəd və ya onunla əlaqəli şəxs olarsa o, bu barədə komissiya üzvlərini məlumatlandırmalı və attestatiyanın təşkili, keçirilməsi və nəticələrinin qiymətləndirilməsində iştirak etməməlidir.

4.5. Attestasiya komissiyası aşağıdakı səlahiyyətlərə malikdir:

4.5.1. attestasiya suallarının sayının və cavablarının müəyyən edilməsi, habelə attestasiya imtahanının davam etmə müddətinin müəyyən edilməsi;

4.5.2. attestasiyanın keçirilmə tarixinin və vaxtının müəyyən edilməsi;

4.5.3. hər bir peşəkar fəaliyyət növü üzrə attestasiyanın minimal keçid balının müəyyən edilməsi;

4.5.4. attestasiyanın nəticələri üzrə qərarın qəbul edilməsi;

4.5.5. attestasiyanın şəhadətnaməsinin vaxtından əvvəl ləğv edilməsi

4.5.6. komissiyanın işinin təkmilləşdirilməsi üçün təkliflərin irəli sürülməsi;

4.5.7. apellyasiya şikayətlərinə baxılması.

4.6. Attestasiyanın nəticələri haqqında attestasiya komissiyası protokol tərtib edilir.

4.7. Attestasiyanın komissiyasının qərarları Birjanın İdarə Heyətinin sədrinin təsdiqindən sonra qüvvəyə minir.

**5. Attestasiyanın keçirilməsi və qiymətləndirilmə**

5.1. Attestasiyadan keçmək üçün müraciət, attestasiyadan keçəcək şəxsin adından onun əməkdaşı olduğu Birja üzvü tərəfindən edilir. Attestasiyada aşağıdakı şəxslər iştirak edə bilərlər:

5.1.1. Namizəd Birjanın üzvü olan şirkətin əməkdaşı olmalıdır;

5.1.2. Nəzarət orqanı tərəfindən müvafiq ixtisas şəhadətnaməsinə malik olmalıdır;

5.1.3. Namizədin Birjada qiymətli kağızlarla ticarət sahəsində ən azı 5 (beş) il davamlı iş təcrübəsi və ya son 6 (altı) ay ərzində ən azı 10 (on) saat müvafiq təlimlərdə iştirakı olmalıdır;

5.1.4. Qaydalara əsasən treyderlər üçün müəyyən edilmiş digər tələblər.

5.2. Birja üzvləri əməkdaşlarının attestasiyadan keçirilməsi üçün Birjaya aşağıdakı sənədləri təqdim etməlidirlər:

5.2.1. Akkreditə şəhadətnaməsinin alınması üçün ərizə-anket (Əlavə № 1);

5.2.2. hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin sürəti;

5.2.3. namizədin şəxsiyyətini təsdiq edən sənədin surəti;

5.2.4. namizədin yerli bazarlarda qiymətli kağızlarla ticarət sahəsində ən azı 5 (beş) il davamlı iş təcrübəsi və ya son 6 (altı) ay ərzində ən azı 10 (on) saat müvafiq təlimlərdə iştirak etməsini təsdiqləyən sənədin surəti;

5.2.5. namizədin nəzarət orqanı tərəfindən verilmiş müvafiq peşəkar fəaliyyət şəhadətnamələrinin surəti;

5.2.6. namizədin son 6 (altı) ay ərzində çəkilmiş 2 (iki) ədəd 4x6 ölçüdə fotoşəkili.

5.3. Təqdim edilmiş sənədlərdə nöqsan və ya uyğunsuzluq olmadıqda, müraciət edildikdən sonrakı 10 (on) iş günü müddətində attestasiya təşkil olunur.

5.4. Attestasiyanın yeri və keçirilmə tarixi haqqında məlumat namizədə attestasiyanın keçirilməsinə ən azı 3 (üç) iş günü qalmış yazılı şəkildə bildirilir. Attestasiya bir neçə mərhələdən ibarət olmaqla, hər bir mərhələ müxtəlif günlərdə və ya eyni bir günün müxtəlif saatlarında təşkil oluna bilər. Bu zaman sonuncu mərhələnin bitməsi tarixi bu qaydaların 5.3.-ci bəndi ilə müəyən edilmiş müddətdən gec ola bilməz.

5.5. Attestasiyadan keçmək üçün təqdim edilən sənədlərdə nöqsan və ya uyğunsuzluq aşkar edildikdə Birja üzvünə 5 (beş) iş günü müddətində nöqsanların və ya uyğunsuzluğun aradan qaldırılması üçün rəsmi bildiriş göndərilir.

5.6. Attestasiyanın nəzəri hissəsi avtomatlaşdırılmış test üsulu ilə xüsusi elektron proqram təminatı vasitəsi ilə həyata keçirilir. Hər bir attestasiya sualı yalnız biri doğru olmaqla 4 (dörd) cavab variantına malikdir. Attestasiyanın nəzəri hissəsi üzrə cavabların məqbul olub-olmaması, avtomatlaşdırılmış test sistemi tərəfindən aşağıdakı qaydada qiymətləndirilir:

5.6.1. düzgün cavab 1 (bir) bal;

5.6.2. səhv cavab 0 (sıfır) bal;

5.6.3. cavablandırılmamış 0 (sıfır) bal.

5.7. Attestasiyanın praktiki hissəsi Birjanın ticarət sisteminin işini təqlid edən xüsusi elektron proqram təminatı vasitəsi ilə həyata keçirilir. Attestasiyanın praktiki hissəsi üzrə cavabların məqbul olub-olmaması, namizədə verilmiş xüsusi ticarət tapşırılarının yerinə yetirilməsinin nəticələrinə əsasən Attestasiya komissiyası tərəfindən aşağıdakı qaydada qiymətləndirilir:

5.7.1. düzgün cavab 3 (üç) bal;

5.7.2. səhv cavab -1 (mənfi bir) bal;

5.7.3. cavablandırılmamış -1 (mənfi bir) bal;

5.8. Attestasiyanın nəticələri attestasiyanın sonuncu mərhələsi bitdikdən sonra 3 (üç) iş günü ərzində müraciət etmiş Birja üzvünə yazılı şəkildə elan edilir. İmtahan nəticələri özündə ən azı aşağıdakı məlumatları əks etdirir:

5.8.1. Namizədin adı, soy adı, atasının adı

5.8.2. Attestasiyanın keçirildiyi tarix

5.8.3. Nəzəri hissə üzrə namizədin topladığı bal
5.8.4. Praktiki hissə üzrə namizədin topladığı bal
5.8.5. Namizədin topladığı yekun bal
5.8.6. Attestasiyanın nəticəsi

5.9. Attestasiyanın nəticələrinə əsasən minimal keçid balını və ya daha yüksək bal toplamış şəxsə Birja tərəfindən 3 (üç) iş günü ərzində Akkreditə şəhadətnaməsi verilir. Akkreditə şəhadətnaməsi almış şəxlər bu şəhatdətnamənin qüvvədə olduğu müddət ərzində Qaydalara müvafiq olaraq səlahiyyətli treyder olmaq hüququnu əldə edir. Akkreditə şəhadətnaməsində ən azı aşağıdakı məlumatlar əks olunur:

5.9.1. Akkreditə şəhadətnaməsin nömrəsi
5.9.2. Birjanın tam adı
5.9.3. Namizədin adı, soy adı, atasının adı;
5.9.4. Şəhadətnamənin verildiyi tarix;
5.9.5. Şəhadətnamənin qüvvədə olduğu müddət;
5.9.6. Birjanın səlahiyyəti şəxsinin imzası;
5.9.7. Birjanın möhürü.

5.10. Attestasiya keçirilən zaman namizədin xüsusi və ya məlumat xarakterli ədəbiyyatdan, rabitə vasitələrindən və hər hansı məlumat daşıyıcılarından istifadə etməsinə, habelə imtahan vaxtı digər namizədlərlə məsləhətləşməsinə, ünsiyyət qurmasına və attestasiyanın keçirildiyi otağı müvəqqəti tərk etməsinə yol verilmir. Bu tələblərə riayət etməyən namizədin attestasiyası dayandırılır və attestasiyadan keçməməsi haqqında qərar qəbul olunur.

5.11. Attestasiyanın keçirildiyi otaqda müvafiq komissiyanın üzvlərindən, komissiyanın müəyyən etdiyi səlahiyyətli şəxslərdən və attestasiyadan keçən şəxslərdən başqa digər şəxslərin olmasına yol verilmir.

5.12. Birja üzvü attestasiyanın nəticəsi barədə qəbul olunmuş qərarla razılaşmadıqda, Birjaya 7 (yeddi) iş günü ərzində apellyasiya şikayəti ilə müraciət edə bilər. Apellyasiya şikayətinə 15 (on beş) iş günü ərzində baxılır və müvafiq qərar qəbul olunur. Qəbul olunmuş qərar haqqında məlumat yazılı surətdə 5 (beş) iş günü ərzində Birja üzvünə bildirilir.

5.13. Birja üzvü, namizəd tərəfindən attestasiya üzrə topladığı yekun bal məqbul hesab edilmədikdə 1 (bir) aydan sonra, namizəd attestasiyaya gəlmədiyi halda isə 3 (üç) aydan sonra eyni namizdən attestasiyadan keçirilməsi üçün yenidən müraciət edə bilər.

**6. Akkreditə şəhadətnaməsinin qüvvədə olma müddəti**

6.1. Akkreditə şəhadətnaməsi 3 (üç) il müddətinə verilir.

6.2. Akkreditə şəhadətnamələrinin reyestri Birja tərəfindən aparılır. Akkreditə şəhadətnamələrinin reyestrində ən azı aşağıdakı məlumatlar əks olunur:

6.2.1. Akkreditə şəhadətnaməsin nömrəsi

6.2.2. Akkreditə şəhadətnaməsinin verildiyi şəxsin adı, soyadı, atasının adı

6.2.3. Akkreditə şəhadətnaməsinin verildiyi tarix

6.2.4. Akkreditə şəhadətnaməsinin müdətinin bitməsi tarix

6.2.5. Akkreditə şəhadətnaməsinin verildiyi şəxsin hazırki iş yeri.

6.3. Birja üzvü qüvvədə olan akkreditə şəhadətnaməsinin müddətinin bitməsinə 1 (bir) ay və ya daha az müddət qalmış yeni akkreditə şəhadətnaməsinin verilməsi üçün müraciət edilə bilər.

6.4. Akkreditə şəhadətnaməsinin yeni müddətə verilməsi bu qaydaların 5-ci bəndində göstərilən qaydada həyata keçirilir. Birja üzvünün təqdim etdiyi namizəd qüvvədə olan Akkreditə şəhadətnaməsinə malikdirsə və attestasiyadan müsbət nəticə ilə keçmişdirsə, yeni akkreditə şəhadətnaməsi əvvəl verilmiş akkreditə şəhadətnaməsinin müddəti bitdiyi gündən verilir.

6.5. Akkreditə şəhadətnaməsinə malik olan şəxs, şəhadətnamənin qüvvədə olduğu müddətin son 6 (altı) ayı ərzində ticarət günlərinin ən azı üçdən iki hissəsni Birjada ticarətdə iştirak etdikdə (Birjanın ticarət sistemində sifarişlər təqdim etdikdə və əqdlər bağladıqda) və ya bu müddət ərzində ən azı 10 (on) saat müvafiq təlimlərdə iştirak etdikdə, yeni akrreditə şəhadətnaməsini attestasiya imtahanından keçmədən əldə edir. Bu halda Birjaya aşağıdakılar təqdim edilir:

6.5.1. Akkreditə şəhadətnaməsinin alınması üçün ərizə-anket (Əlavə № 1);

6.5.2. hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin sürəti;

6.5.3. namizədin şəxsiyyətini təsdiq edən sənədin surəti (dəyişiklik olduqda);

6.5.4. namizədin son 6 (altı) ay ərzində ticarət günlərinin ən azı üçdən iki hissəsni Birjada ticarətdə iştirak etməsini və ya bu müddət ərzində ən azı 10 (on) saat müvafiq təlimlərdə iştirak etməsini təsdiqləyən sənədin surəti;

6.5.5. namizədin son 6 (altı) ay ərzində çəkilmiş 2 (iki) ədəd 4x6 ölçüdə fotoşəkili.

6.6. Aşağıdakı hallarda Birja üzvünün səlahiyyətli treyderinə verilmiş Akkreditə şəhatədnaməsi müddətinin bitməsindən öncə, Birja üzvünü məlumatlandırmaqla, Birja tərəfindən ləğv edilə bilər:

6.1.1. Akkreditə şəhadətnaməsinə malik olan şəxs şəhadətnamənin qüvvədə olduğu müddət ərzində 1 (bir) ildən artıq müddətdə Birjada ticarədə iştirak etmədikdə;

6.1.2. Qaydalarla müəyyən olunmuş hallarda Akkreditə şəhadətnaməsinə malik olan şəxs ticarətdən 3 (üç) gündən artıq müddətdə kənarlaşdırıldıqda;

6.1.3. Qaydalar əsaslı şəkildə dəyişdirildikdə;

6.1.4. Bazarın qorunması məqsədləri ilə Qaydalarda nəzərdə tutulmuş digər hallarda.

**Bakı Fond Birjası QSC-yə**

______________________________

*(təşkilatın tam adı)*

**tərəfindən**

**ƏRİZƏ-ANKET**

Xahiş edirik ki, səlahiyyətli treyder fəaliyyəti ilə məşğul olmaq üçün Akreditə şəhadətnaməsinin alınması məqsədilə aşağıda göstərilən əməkdaşımızın attestasiyadan keçməsinə icazə verəsiniz:

**A. Ümumi məlumat**

| | | |
|---|---|---|
| 1 | **Adı, Soyadı, Atasının adı** | |
| 2 | **Şəxsiyyəti təsdiq edən sənəd** | Seriya______ nömrə______________ |
| 3 | **Qeydiyyatda olduğu ünvan** | |
| 4 | **Yaşayış yeri (qeydiyyatda olduğu ünvandan fərqlidirsə)** | |
| 5 | **Əlaqə telefonları** | İş: |
| | | Mob.: |
| | | Ev: |
| | | Digər: |
| 6 | **Elektron poçt ünvanı** | |
| 7 | **Müraciət gününə olan iş yeri** | |

**B. Akademik fəaliyyətin təsviri**

| **№** | **Təhsil müəssisəsinin adı** | **İxtisas** | **Dərəcə** | **Təhsilin başlanılması tarixi** | **Təhsilin bitirilməsi tarixi** |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |

**B. Sahib olduğu peşəkar ixtisas şəhadətnamələri (qüvvədə olan)**

| № | Fəaliyyət növü | Seriya, nömrə | Verilmə tarixi | Qüvvədə olma tarixi |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |

**C. Son 5 (beş) il ərzində əmək fəaliyyətinin təsviri**

| № | İş yerinin adı | Tutduğu vəzifə | İşə başladığı tarix | İşdən çıxdığı tarix | Əsas vəzifə öhdəlikləri/əsas nəaliyyətlər (qısa təsvir) |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |
| | | | | | |

**D. Son 6 (altı) ay ərzində aldığı peşəkar təlimlərin təsviri**

| № | Təlimin adı | Təlimin təşkilatçısı | Təlimin başladığı tarix | Təlimin bitdiyi tarix | Təlimin ümumi dəvamiyyət müddəti (saatla) |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |
| | | | | | |

Rəhbər:__________________

İmza:________________ Tarix:__________________

*M.Y.*

---

**Xidməti qeyd:**

***Bu hissə Birja tərəfindən doldurulur.***

1. Müraciətin qəbul olunduğu tarix:_______________ Saat:___________

Məsul şəxs (A.A.S): ____________________________(vəzifəsi)________________________________________

İmza:________________________

2. Attestasiyanın nəticələri_______________________________________________________________________
________________________________________________________________________________________________

Məsul şəxs (A.A.S): ____________________________(vəzifəsi)________________________________________

İmza:________________________

3. Digər qeydlər_________________________________________________________________________________
________________________________________________________________________________________________
________________________________________________________________________________________________